

*Nəcməddin MÜRVƏTOV*

## "BƏXTİYAR"SAN

*Bəxtiyar Vahabzadə -100*

Şama döndün yandın müdam yaşayasan,
Nur saçasan ətrafına olsan harda.
Ürəyində millət dərdi daşıyasan,
Xilas yolu göstərəsən ona darda.

"Gülüstan"la bəyan etdin Gülüstanda,
Kimlər çəkib sinəmizə çarpaz dağı.
Düşünmədin yox özünü zərrə onda,
Fikrin şəksiz olmağındı el dayağı.

Qaçılmazdı görəcəksən əzab, zillət,
Qəbul etdin dəyişməyib əqidəni.
Sarsılmadın, əyilmədin, axı millət,
Borcluydu da qorumağa o vaxt səni

Qılınc çəkdin haqsızlığa zaman-zaman,
Dedin çılpaq həqiqəti şax üzlərə.
Əyrilərə qələmindən yoxdu aman,
Sevgin vəsfdə ümman idi saf, düzlərə.

Hüdudsuzdu Allah eşqi səndə əlbət,
Gördüm onu həqiqətdə, ləyaqətdə.
Ədalətdə, hörmət, heyrət hikmət, fitrət,
Qüdrət, qeyrət, məhəbbətdə, sədaqətdə.

Ruhundakı yenilməzlik, mübarizlik,
Heykəlləşib şeirindəki hər misrada.
Mənaları açıq, aydın yox qəlizlik,
Dərkdə qala möhkəmlənir birсə anda.

Fərqlənmisən həqiqəti çəkməkdə car,
Yorulmadın, usanmadın heç bu yolda.
Bədxahları susdurmağa mərmin əşar
Oldu, ötdü bütün ömrün bu əhvalda.

Ana mehri sevgisindən, məhəbbətdən
Yazdın məsum saf,pak kövrək uşaq kimi.
Yəqin ki gözlərini onda tutub nəm,
Yanğınla da köklənib qəlbinin simi.

Ruhundaydı, canındaydı böyük Turan,
Bəhs edirdin olan ortaq dəyərlərdən,
Hayqırırdın dil, din birdir kitab, Quran,
Nədən ayrı olmalıyıq axı nədən?

"Bəxtiyar"san şairlərin bayraqdarı,
Şama döndün yandın müdam yaşayasan.
Dönüb oldun türk soyunun iftixarı
Bacarmaz yox bunu hər kəs, deyil asan.
**11.12.2025.**

## VAXT TAPMIRAM DARIXMAĞA

Olmasa da heç az yaşım,
Arzumla dildə"kaş-kaş"ım.
Qarışır iş-gücə başım,
Qoşulub cavan, uşağa
Vaxt tapmıram darıxmağa.

Xəyallarla qalanda tək,
Qurub yaratmağa istək,
Diləyilə vurur ürək,
Keçirəm plan qurmağa,
Vaxt tapmıram darıxmağa.

Görsəm biri qalıb darda,
Şaxtada, boranda, qarda.
Yetişirəm olsa harda,
Baxmayıb dərəyə, dağa,
Vaxt tapmıram darıxmağa.

Yetməyəndə qol qüvvətim,
Olur başqa bir xidmətim.
Çatır dada məsləhətim,
İş dönə düz yol-yolağa,
Vaxt tapmıram darıxmağa.

Bekar qalmıram bir an da,
Həyətdə, bağda, bostanda.
Həzz ləzzətlə ruhda, canda,
Əl atıb belə, dırmıxa,
Vaxt tapmıram darıxmağa.
**28.11.2025**

## DƏRKİNLƏ VER QƏRAR

Dinlə öyüd, nəsihəti
Eşit, nə olar, məsləhəti,
Saf-çürük et söz, söhbəti,
Başlamazdan nə işin var,
Öz dərkinlə ver düz qərar.

Çox olacaq "edərəm"lər,
Sənlə birgə "gedərəm"lər,
Əvəzinə "ödərəm"lər.
"Bərk"də vədi edən inkar,
Öz dərkinlə ver düz qərar.

Qalmamağa çarəsiz, çaş,
Deməməyə sonucda "kaş"
Yüz ölç, bir biç, işlət ki, baş,
Olmağınla usta, pərgar,
Öz dərkinlə ver düz qərar.

Saysız olar göstərən yol,
Bəzisi sağ, bəzisi sol,
Deyən xeyli "arxayın ol".
Darmacalda duran kənar,
Öz dərkinlə ver düz qərar.

Səbr, təmkin çətinində
Göstər, sərvaxt diqqətində,
Ol, ruhunla ol, mətin də.
Olmamağa uduzub xar,
Öz dərkinlə ver düz qərar.
**25.11.2025**

## TÜKƏNMƏSİN HƏYAT EŞQİN

Çətinliklər olub, olur, olacaq,
Köksdə izi qalıb, qalır, qalacaq,
Candan nəsə alıb, alır, alacaq.
Köklənmə ha yaşamında, yox, bədə,
Tükənməsin həyat eşqin nəbadə.

Üzərinə hücum çəkə düşmənin,
"Qalib ollam" deyib, buna et əmin.
Öz ruhunu, axtar, ara yol, zəmin
Ki, sanasan "vuraram"ı boş hədə,
Tükənməsin həyat eşqin nəbadə.

Hər bəla da Tanrıdandır, san sınaq,
Dözüm göstər, qəbul etmir bil, qınaq.
Dur, əzmini, hünərini et dayaq
Özünə ki, gözlə gələ xoş vədə,
Tükənməsin həyat eşqin nəbadə.

Zaman, dövran çevirəndir, dəyişən,
Uşaq təki hər an sənlə əyişən,
Gah ağladan, gah güldürüb edən şən.
Sevinc, kədər durur yetə növbədə,
Tükənməsin həyat eşqin nəbadə.

Tükənməsin, çox ağırdır bu əhval,
Əl, qol düşər yana, şəksiz dilin lal
Olar, onda ürəyinə düşər xal.
Məna olmaz ömrün orta hey gedə,
Tükənməsin həyat eşqin nəbadə.
**27.11.2025**

## TANRIM AMAN VERƏR

Qənim kəsilib ki mənə yaddaşım,
Tez-tez səhvlərimi sayır üzümə.
Təkin çək-çevirdən ağrıyır başım,
Osa neçəsini qoyur düzümə.

Hərəsi qəlbimə qoyub çox ağır
Özümdən inciklik, unudum necə?
Bir anda alınıb ancaq mən fağır,
Səssiz daşıyıram illər gizlicə.

Olub həyatımdan küsdürən tamam,
Ağrıyla, acıyla anmışam hər gün.
Xəyalda, röyada sanki ala kam,
Dönüblər cəllada gerçəkdən üstün.

Dərdə dönən olub əyə qəddimi,
Tutan dönə-dönə sorğu-suala.
Belə haqqa gedən yolda rəddimi,
İstəyib yenidən hey təkrar ola.

Qurtulam çoxundan edib etiraf,
Üzr diləmişəm, özümdən də həm.
Neçə düzəlməzlər deyib bitir laf,
Sənlədir əbədi qalan kəsir-kəm.

Təsəlli tapıram şükür kimsə yox,
Yox, yox səhvlərimdən görməyib zərər.
Cəzam da özümə olub çoxdan çox,
Yəqin Tanrı mənə hə, aman verər.
**28.11.2025**

## GƏLƏR

*Qardaşım Rəhim Bağırova*

Gözləyirəm bir gün gələr, şəksiz gələr,
Qıymaz mənə gözüm qala çox yollarda.
Fəhmiylə də ürəyimi duyar, bilər
Çatdırar da özünü tez, olsam harda.

Belə olub yaşamında, ömründə o,
Heç nigaran qoymayıb ki, yaxınları.
Yaxşılığa sərf eyləyib ömrün də o,
Pak, təmizdi etibarı, düz ilqarı.

Ondan, bundan dərd yığardı ürəyinə,
Çətinində başqasının yanındaydı.
Çevirərdi öz arzusu, diləyinə,
Beləliyi iliyində, qanındaydı.

Eh, nə deyim sənə de, nə, zalım fələk
Ayrılığı nə tez saldın aramıza?
Heç, puç oldu bizdə ortaq neçə dilək,
Səbəb yanan kökslərdəki yaramıza.

İndi onla xəyallarda danışıram,
Susur, baxır, gülümsəyir, dinmir ki heç.
Bu əhvaldan odlanıram, alışıram,
Görən bunu bilir, ya ki, bilmir ki, heç.

Gözləyirəm bir gün gələr, şəksiz gələr,
Qıymaz mənə gözüm qala çox yollarda.
Fəhmiylə də ürəyimi duyar, bilər
Çatdırar da özünü tez, olsam harda.
**05.12. 2025**

## GƏLİR KƏF

Anlamıram nə vurhavur, hayharay,
Yox fırıldaq, hoqqalarda miqdar, say.
Var toplaya, qura yekə mülk, saray,
Gözləməyib abır, həya, şan, şərəf,
Hərə bir cür başqasına gəlir kəf.

Üzlər dönüb elə bil ki, qart daşa,
Güzəşt etmir doğma qardaş-qardaşa.
Çevrilmişik açıq-aşkar külbaşa,
Pis qarışıb başımız da "sər-kələf",
Hərə bir cür başqasına gəlir kəf.

Bilmirik ki, böyük, kiçik yerini,
Satmaqdayıq yaxın, sirdaş sirrini.
Hey didirik heçdən biri-birini,
Vecə deyil harda ola kim tələf,
Hərə bir cür başqasına gəlir kəf.

Heç baxmayıb saf-doğruya, haqq-düzə,
Şər deyənlər dirənirlər şax üzə.
Səydədirlər sınaq, çökək lap dizə,
Gələ bəla özümüzdən, olaq məhv,
Hərə bir cür başqasına gəlir kəf.

Dünyamızın çox ağırdır əhvalı,
Deyən, çatır, yaxınlaşır zavalı.
Yumaqdayaıq hər gün günah-babalı,
Saxtalıqla diləməklə rəbbdən əhv,
Hərə bir cür başqasına gəlir kəf.

Bədliklərlə pis düşmüşük inada,
Əməlimiz ağrı-acı yarada.
Laqeydlərik ah-naləyə, fəryada,
Alverdəyik, bazar sanki hər tərəf,
Hərə bir cür başqasına gəlir kəf.
**13.12.2025**

## OXU BAXIŞIMDAN

Baxışımdan oxu o tək kəlməni,
Ucuzlaşıb eşitməzsən dilimdən.
Ruhumdadır, o yaşadır bil məni,
İnanmağa toxun, tut da əlimdən.

Gözlərimə həkk olunub surətin,
Orda bax ki başqasına yer hanı?
Olsun lap az, lap azacıq diqqətin,
Özünsən də, özünsən də gör tanı.

Çox çətindir məgər kəlməm, sözümdən,
Duymaq mehri-məhəbbətdən istini?
Od götürüb ürəyimin közündən,
Gözləntinin varmı bundan üstünü?

Heyranlığı göstərmirmi görkəmim,
Olsan harda sürünməyim dalınca?
Nitqim donur görcək, saysız, çox kəmim,
Alınmırmı uyub seyrə dalınca?

Bax diqqət et, deyiləmmi həmin "söz",
Bütövlükdə yazılmışam adına?!
Fikrin ndədir?- Deyəcəksən hələ döz?
Girirsən a, məftununun haqqına.
**13.12.2025**

## GÖZLƏMƏ

Dəyərsizdən yox gözləmə dəyəri,
Özündə yox, sənə verər necə o?
Var ruhunun çox əskiyi -əyəri,
Bax gör alır heç bunları vecə o?

Məramı tək ucuz şöhrət qazana,
Kəf gəlməklə ətrafına yaşaya,
Çal-çapından hamı gəlib cəzana.
Fikri yaxşı nə var çəkə,qaşıya.

Düşünərmi başqasını belədə,
Baxa,görə nəyə çatır qüdrəti,
"Haqqı deyər?"uyma onda felə də,
Adınadır təkcə qulluq,xidməti.

Nə söyləsə,boğazından yuxarı,
Ürəyində kif bağlamış "mən-məni".
Abrı yox ki həyası yox,yox arı.
Ağzı aça,deyir sanki söy məni.

Nəsə "vəd et,"hə çəkilməz yanından,
Heç-puçunu çevirəcək dürr-zərə.
Qazancını artıq sayar canından,
Aldanma da bax,belədə dəyərə.

Dəyərsizdən yox gözləmə dəyəri,
Özündə yox sənə verər necə o?
Var ruhumu çox əskiyi əyəri,
Bax gör alır heç bunları, necə o?
**01.12.2025**

## BAŞINI ƏZ

Fitnəsiylə şığıyırsa üstünə çox,
Hikkəsindən çəkilmirsə bir addım, yox,
Məkri olar, beləsinin şərindən qorx.
Mənasızdır söz,sovuyla nə etsə vəz,
Xislətində ilanlıq var, "başını əz".

Bədliyindən utanmaz ki, zərrə qədər,
Çəkindirmək onu bundan səyin hədər
Olar, yaymaq hərisidir qüssə, kədər.
Cümləsinin əvvəli, həm sonu qərəz,
Xislətində ilanlıq var, "başını əz".

Üzü dönsə tanımaz ki, qohum-qardaş,
Lap baş kəsər belədə bu ürəyi daş.
Heççə nədən bir mərəkə, dava, savaş
Qurmaq onda sağalmazdır, ağır mərəz.
Xislətində ilanlıq var, "başını əz".

Taleyindən, bəxtindən küs əgər ki, sən
Bir iş görüb toxunası hər nə desən
Ona, dönüb cəllad olar asıb, kəsən.
Dayanmaz ki, çıxarmasa min qat əvəz,
Xislətində ilanlıq var, "başını əz".

Yolun üstə yalvar, Tanrı belə kəsi
Çıxarmasın, olmasın ki, əlaqəsi.
Şər deməsən xeyir gəlməz, olsa əksi.
Alınsa da şeytan işi eyləyək fərz,
Xislətində ilanlıq var, "başını əz".
**26.11. 2025**